Ədəbiyyat QƏZETİ

# Yaşamaq, yaratmaq ona yaraşır



**Qəzənfər PAŞAYEV**
*Əməkdar elm xadimi, professor*

Bugünlərdə nümunəvi ziyalı və böyük alim, akademik Teymur Bünyadovun yaşının üstünə bir yaş da gəldi. Adət-ənənələrimizin yorulmaz daşıyıcısı olan Teymur müəllim elminə, xasiyyətinə və xeyirxahlığına görə hamının sevimlisinə çevrilmişdir. Bu böyük insan dünya uzunömürlüləri sırasında vüqarla addımlayır və xalqımızı təmsil edir. Uzunömürlülər dünya əhalisinin yalnız bir faizini təşkil etdiyini nəzərə alsaq, onun iş qabiliyyətinə, hafizəsinə və yazıb-yaratmaq eşqinə heyran olmamaq olmur.

Çoxlarının yadlaşmasına səbəb olan koronavirus bizim uzun illərdən bəri davam edən dostluq münasibətlərimizə təsir edə bilməmişdir. Demək olar ki, hər axşam zəngləşirik. Şairlərin və görkəmli aşıqların yadda qalan şeirlərindən deyirik. Ədəbiyyatdan, şifahi xalq yaradıcılığından söz açırıq, lətifə danışırıq. Doğrudur, Teymur müəllimin incə yumoru lətifədən heç də geri qalmır. Onun yumoru başqa aləmdir. Bəzən zəng edib kefini soruşanda deyir:

- Kefim yaxşıdır. Bu gün xeyli bayatı yazmışam. Bir az yorulmuşam. Özümü dincə qoymuşam (yəni istirahət edirəm).

Bir dəfə telefon açmışdı. Əlim dəydi, əlaqə kəsildi. Mən zəng etdim.

- Bir də belə şey etmə - dedi. Mən səndən də çox milyonerəm (məndən çox maaş aldığına işarə edirdi).

Bir dəfə də Vətən müharibəsi vaxtı türklərin hər an yanımızda olmasından, ordumuza və dövlətimizə hər cür yardım etməsindən söz düşmüşdü. Yadıma alman filosofu Hegelin türklər haqqında dediyi qızıl qiymətli sözlər düşdü. Dedim, qağa, bilirsən Hegel türklər haqqında nə deyib?

- Yaxşı tanıyıram, qohumumuzdur (ixtisasca yaxın olmalarına işarə edirdi), nə deyib?

- Hegel deyib ki, istərdim dünyanı versinlər almanlar idarə etsinlər. Lakin milliyyətcə alman olduğuma görə məni qınayarlar. Odur ki, deyirəm: "Verin dünyanı türklər idarə etsin. Türklər ədalətli və insaflıdırlar".

- Böyük alimlər həqiqəti deməkdən çəkinmirlər - dedi və Hegelin sözlərini təkrar etdi.

Akademikin bu ahıl çağında da iti düşünmək qabiliyyəti, yaddaşı, zəkası məni heyran etdi.

Teymur müəllimin uşaqlıq və gənclik illəri keşməkeşli və acınacaqlı keçmişdir. Səkkiz yaşında olanda anasını itirmiş, on yaşında olanda (1938) isə atasını - Qori Seminariyasının məzunu Əmiraslan Nazar oğlunu "xalq düşməni" damğası ilə güllələmişdilər.

Ağır vaxtlarda yetim qalmağın nə demək olduğunu təsəvvür etmək üçün Teymur müəllimin tez-tez təkrar etdiyi Kərkük bayatısını yada salmaq kifayətdir:

*Necə dağlar;*
*Qarşıda necə dağlar.*
*Yetim yanağı bilir*
*Göz yaşı necə dağlar.*

Xalq arasında deyim var: "Bir yandan bağlayan fələk, bir yandan açır". Yaradan Teymur Bünyadova elə bir istedad vermişdi ki, onun ziyası ilə bütün manеələri yarıb keçmişdi. O, orta məktəbi qızıl medalla bitirəndə həsəd aparanlar, paxıllıq edənlər, hətta "xalq düşməni"nin oğluna qızıl medal verilməsinə qarşı çıxanlar da olmuşdu.

Teymur müəllimə qızıl medalın verilməsinin önünə sədd çəkməyən cəsur insanlara həsəd aparıram. Mən Teymur müəllimə bu haqda danışanda o dedi:

"Qızıl medalın mənə verilməsinin səbəbkarı Qara Sultanov olub. O, komissiyanın sədri idi. Tanıyırdınmı?" Dedim: "Qağa, Qara müəllim bizim kənddən idi. Bəy oğlu idi. Azərbaycanın görkəmli riyaziyyatçısı idi".

Teymur Bünyadov orta məktəbi bitirən kimi Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin tələbəsi olmuş (1946), Universitetdən məzun olan kimi (1951) Azərbaycandan ilk olaraq SSRİ Elmlər Akademiyasının Maddi Mədəniyyət Tarixi İnstitutunun aspiranturasına daxil olmuşdu. Elə aspirantlıq dövründə elmi işini tamamlayaraq "Tunc dövründə Azərbaycanda əkinçilik və maldarlıq" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və vətənimizə dönmüşdür.

1955-ci ilin may ayından alimin həyatı və elmi fəaliyyəti əvvəlcə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutu ilə, 1993-cü ildən Arxeologiya və Etnoqrafiya İnstitutu ilə bağlı olmuşdur. 1968-ci ildə "Azərbaycanın Qədim və Orta əsrlər dövrü təsərrüfat həyatı" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək Respublikada arxeologiya və etnoqrafiya elmləri üzrə ilk tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. 1970-ci ildə professor elmi adına layiq görülmüşdür.

1989-cu ildə Azərbaycan EA-nın müxbir üzvü, 2001-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir. 1994-cü ildən yeni Azərbaycan Partiyasının üzvü olan alim Respublikanın ictimai həyatında fəal iştirak edir. Teymur müəllim ümummilli lider Heydər Əliyevin və sonralar İlham Əliyevin prezident seçkilərində vəkil olub.

1995-ci ildə I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş və Milli Məclisin Elm və Təhsil Məsələləri Daimi Komissiyasının sədri olmuşdur.

Bu ilə kimi Respublika Ağsaqqallar Şurasının sədr müavini idi. Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şuranın və Yazıçılar Birliyinin üzvüdür.

O, uzun illər AMEA Humanitar və İctimai Elmlər bölməsinin akademik katibinin müavini, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü, Azərbaycan Respublikası Milli Məclisi yanında Toponimika Komissiyasının sədr müavini olmuşdur.

Akademik Teymur Bünyadov səmərəli elmi və ictimai fəaliyyətinə görə dövlətimiz tərəfindən 2005-ci ildə "Şöhrət" ordeninə, 2008-ci ildə isə "Əməkdar elm xadimi" fəxri ada layiq görülmüşdür.

Hazırda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, İnstitutun Dissertasiya Şurasının sədridir.

Akademik Teymur Bünyadov Azərbaycan etnoqrafiya elminin banilərindəndir. Bu sahədə 10-dan çox elmlər doktoru, 35-ə qədər elmlər namizədi yetişdirmişdir. Qürur duyuram ki, onun rəhbərliyi ilə müdafiə edən Rəna Rəcəbovanın (namizədlik), Solmaz Məhərrəmova və Məhəbbət Paşayevanın doktorluq dissertasiyaları üzrə opponent olmuşam. İlhamə Məmmədovanın "Təbriz şəhərinin maddi mədəniyyəti" mövzusunda doktorluq dissertasiyasına rəy vermişəm. Onun 500 səhifəni əhatə edən monoqrafiyası ilə bağlı mətbuatda "İkiyə bölünmüş ürək yaralarını sağaldır" adlı məqaləm çıxıb. Məhəbbət Paşayevanın "Azərbaycanın qədim diyarı Xınalıq" kitabına "Bənzərsiz etnoslar haqqında bənzərsiz əsər" adlı ön söz yazmışam. Teymur müəllimin Əməkdar artist, sayılıb-seçilən müğənni Nuriyyə Hüseynovaya həsr etdiyi "Sən olmasaydın" əsərinin redaktoru olmuşam.



Teymur müəllimlə elmi əlaqələrimizin tarixi 40 ilə çatır. 1983-cü ildə ABŞ-da iki aylıq ixtisasartırma kurslarında olarkən əldə etdiyim, professor Sula Benetin Qafqazdan bəhs edən "Necə yaşayasan, yüzü haqlayasan" və Aleksandr Dümanın "Qafqaz səfəri" əsərlərini tərcümə edib "Yazıçı" nəşriyyatında çap etdirəndə Teymur müəllim hər iki kitab haqqında mətbuatda müsbət rəy yazdı. Lap bu yaxınlarda da haqqımda həcmcə kiçik, mənaca dərin "Yaxşı ki, sən varsan, Qəzənfər!" adlı məqalə yazıb.

Mən də qədrşünaslıqla bu sadə, təvazökar insan və böyük alimin yaradıcılığına məqalələr və akademikin rəhbərliyi və iştirakı ilə yazılmış möhtəşəm "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası" və "Qəbələ folkloru" üçcildliyinə "Qəbələ keçmişdə və günümüzdə" adlı kitab həsr etmişəm.

Yaradan insana istedad bəxş eyləyəndə çoxşaxəli verir. Elm aləmində nüfuz sahibi olan alimin fəaliyyətində ədəbi-bədii yaradıcılıq da mühüm yer tutur. Teymur müəllim tarixçi, etnoqraf, folklorşünas olmaqla bərabər, eyni zamanda yazardır.

Yazıçının ata-anadan yetim qalan bir gəncin, daha doğrusu, özünün həyatından bəhs edən avtobioqrafik "Göz yaşları" romanını, göz yaşı tökmədən oxumaq olmur. Bircə misalla kifayətlənəcəyəm. Atasına bəraət veriləndən sonra Teymur müəllimi çağırıb qanbahası təklif etmişdilər. Onun cavabı qısa olmuşdur: "Atama vurulan güllə bağrımı elə parçalayıb, qanla elə doldurub ki, qanbahasına yer qalmayıb".

XX əsrin 70-ci illərindən başlayaraq o, "Ana Kürüm", "Qızıl qaya", "Zirvə qaya", "Qız var oğuldan qeyrətli", musiqi tariximizdən bəhs edən "Əsrlərdən gələn səslər", redaktoru olduğum, Əməkdar artist Nuriyyə Hüseynovaya həsr olunan "Sən olmasaydın", "Bir qız bir oğlanındır" kimi sadə və anlaşıqlı dildə yazılan, oxucular tərəfindən bəyənilən əsərlər yazmışdır. Onun həm elmi, həm də bədii əsərlərinin dili bir örnəkdir.

Teymur müəllimin uşaqlıq və gənclik illərini keçirdiyi Qərb bölgəsində insanların mənəvi qidası saz-söz olub. Odur ki, saz-söz vurğunu olan akademik poeziyanı, xüsusən də aşıq poeziyasını və bayatıları çox sevir və illərdən bəridir ki, bayatı yazır. Son iki onillikdə onun qədər bayatı yazan ikinci bir yazarımız yoxdur. Teymur müəllimin dördcildlik bayatılar kitabı buna əyani misaldır. Onun bayatılarının əksəriyyətinin 1-ci sətri kəmhecalı, Kərkük ellərində olduğu kimi xoyratvarı cinaslı bayatılardır:

*Qan sızlar;*
*Sinəm qandı, qan sızlar.*
*Qansıza bel bağlama*
*Qansız olur qansızlar.*

Akademik Teymur Bünyadov daha çox siyasi bayatılara üstünlük verir. Ulu Öndərimiz dünyasını dəyişəndə yazdığı bayatı Zəlimxan Yaqubun "Əbədiyyət dastanı" kimi bitmiş bir əsərdir:

*Bir də gəlməz;*
*Gəlmişdi, bir də gəlməz.*
*Heydər kimi bir oğul*
*Dünyaya bir də gəlməz.*

Alimin dördcildliyi əyani şəkildə göstərir ki, xalq yaradıcılığının, hətta ən qədim növü belə yeni dövrün fikrini ifadə etməkdə münasib forma olur. 1990-cı ilin 20 yanvarında sovet ordusu Bakıya yeriyərək qırğın törədəndə, bu vəşhiliyə dözməyən Teymur müəllim ürəkağrısı ilə yazmışdı:

*Qan ağlar;*
*Qanlı Yanvar qan ağlar.*
*Dəyişər çərxi-dövran*
*Qan udduran, qan ağlar.*

Xalqımızın başına gətirilən müsibət onun doğum günündə baş vermişdi. O vaxtdan Teymur müəllim ad gününü qeyd etmir.

Akademik Teymur Bünyadov təmtəraqsız və iddiasız yaşamağı bacaran, könlü-gözü tox, ədəb-ərkanlı, ağayana, alnıaçıq, üzüağ köhnə kişilərdəndir. O, sözün həqiqi mənasında nümunə məktəbidir.